**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, təhsil, səhiyyə, mədəniyyət və icbari tibbi sığorta sahələrində qarşıda duran vəzifələrin vaxtında və düzgün icra edilməsi, mövcud nöqsanların aradan qaldırılmasının sürətləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi və nəzarətin gücləndirilməsi məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi, “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsi və “Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsi:

1.1. Azərbaycan Respublikasının analoji dövlət orqanının (qurumunun) sisteminə inteqrasiya, müvafiq sahə üzrə ölkədə formalaşmış uğurlu təcrübənin muxtar respublikada tətbiqi, habelə dövlət xidmətlərinin göstərilməsi metodologiyasının ölkə təcrübəsinə uyğunlaşdırılması və elektron informasiya sistemlərinin vahid bazada birləşdirilməsi, o cümlədən bilik və təcrübə mübadiləsinin aparılması və Azərbaycan Respublikasının analoji dövlət orqanının (qurumunun) tabeliyindəki təşkilatların resurslarından birgə istifadəyə dair əməkdaşlığın qurulmasını təşkil etsinlər;

1.2. müvafiq sahə üzrə normativ hüquqi bazanın və fəaliyyətlərini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi və ölkə qanunvericiliyinə uyğunlaşdırılması zərurəti olan hallar üzrə təkliflər hazırlayıb Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

1.3. müvafiq sahə üzrə funksional və inzibati proseslərin təşkili məqsədilə keyfiyyətli idarəetmə sisteminin tələbləri (AZS ISO 9001-2020 və digər aidiyyəti standartlar) çərçivəsində prosedurların formalaşdırılması və tətbiqi, həmçinin dövlət xidmətlərinin pasportlaşdırılması, elektronlaşdırılması və avtomatlaşdırılması istiqamətində zəruri tədbirlər görsünlər;

1.4. müvafiq sistem üzrə təşkilati-struktur islahatlarının davam etdirilməsi, habelə inzibati işlərin təşkilində intizamın gücləndirilməsi məqsədilə idarəetmə mexanizminin təkmilləşdirilməsi, o cümlədən risklərin idarə edilməsi, daxili nəzarət və audit, mübahisələndirilən məsələlərə dair hüquqi icraat, maliyyə planlaşdırılması və uçotu, mühasibat, təminat, təchizat, satınalmalar və kadr uçotu işinin aparılmasının qanunvericiliklə müəyyən olunmuş qaydalar çərçivəsində mərkəzləşdirilmiş qaydada təşkili üçün zəruri tədbirlər görsünlər;

1.5. müvafiq sistem üzrə qanunvericiliklə tənzimlənməyən işə qəbul, əməkdaşların bilik, bacarıq və praktiki vərdişlərinin inkişaf etdirilməsi, işçilərin fəaliyyətinin qiymətləndirilməsi, habelə onların əməyinin stimullaşdırılması və sosial müdafiəsinin gücləndirilməsinə dair

məsələlərlə bağlı qaydaların layihəsini hazırlasınlar və razılaşdırılması üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

1.6. müvafiq sistem üzrə rəqəmsallaşdırmanın tətbiqinin sürətləndirilməsi üçün zəruri maddi-texniki bazanın formalaşdırılmasını təmin etsinlər;

1.7. dövlət investisiya proqramı çərçivəsində, o cümlədən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" və maliyyələşməsinin muxtar respublika büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən həyata keçirilməsi nəzərdə tutulan layihələrin aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış texniki-iqtisadi əsaslandırmaları, həmin layihələrlə bağlı iş və büdcə planları, maliyyələşdirilmə qrafikləri barədə məlumatların hazırlanmasını və qeyd olunan layihələrin idarə edilməsi məqsədilə müvafiq layihə idarəetmə qurumlarının formalaşdırılmasını təmin etsinlər;

1.8. müvafiq sistem üzrə aktivlərin və öhdəliklərin müntəzəm inventarizasiyasının keçirilməsi, maliyyə-büdcə planlaşdırmasının real ehtiyaclar və müddət əsasında aparılması, büdcə vəsaitlərinin tam və təyinatı üzrə icrası və bu sahədə nəzarətin təmin edilməsi üçün zəruri tədbirlər görsünlər;

1.9. müvafiq sistem üzrə fəaliyyətin lazımi keyfiyyətdə təşkili və müəyyən olunmuş normativlərə uyğunlaşdırılması üçün mövcud maddi-texniki bazanın çatışmazlıqlarını müəyyənləşdirsinlər və bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsinlər, habelə aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması məqsədilə maddi-texniki bazanın möhkəmləndirilməsi üçün ayrılmış maliyyə vəsaitləri çərçivəsində zəruri tədbirlər görsünlər;

1.10. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 avqust tarixli 84s nömrəli Sərəncamı ilə yaradılmış İşçi qrup tərəfindən müvafiq müəssisələrdə, ərazilərdə və inzibati binalarda, o cümlədən dövlət təhsil, tibb və mədəniyyət müəssisələrində aparılan monitorinqlər zamanı aşkar edilmiş qüsur və çatışmazlıqların aradan qaldırılması ilə bağlı məsələləri həll etsinlər.

2. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi:

2.1. tikintisi davam etdirilən və qəzalı vəziyyətdə olan ümumi təhsil müəssisələri tərəfindən tədris prosesinin ən optimal təhsil müəssisəsində təşkilini təmin etsin və təhsilalanların "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü maddəsi ilə müəyyən olunmuş hüquqlarının təmini istiqamətində zəruri tədbirlər görsün;

2.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 iyul tarixli 62s nömrəli Sərəncamına uyğun olaraq tikintisi başa çatmamış tədris obyektləri üzrə sifarişçi funksiyasının Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə təhvil-təslimini həyata keçirsin;

3. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi və "Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsi:

3.1. əlilliyin qiymətləndirilməsi və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində göstərilən xidmətlərin optimallaşdırılması və elektronlaşdırılması ilə bağlı ölkədəki analoji təcrübənin muxtar respublikada tətbiqini və bu sahədə fəaliyyət göstərən dövlət qurumları ilə qarşılıqlı koordinasiyanı təmin etsinlər, müvafiq komissiyaların birgə fəaliyyətinin təşkilinə dair iş aparsınlar;

3.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 oktyabr tarixli 133 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyinə verilmiş tibb müəssisələrinin balansında olan əmlakların təhvil-təslimini yekunlaşdırsınlar;

3.3. zərərlə işləyən və fəaliyyəti formal xarakter daşıyan tabeliklərindəki qurumların fəaliyyətinin zəruriliyini təhlil etsinlər, aidiyyəti dövlət qurumların rəyləri nəzərə alınmaqla, təhlil nəticəsində fəaliyyəti əsassız hesab edilmiş qurumların ləğv edilməsi və həmin qurumlar tərəfindən göstərilən və göstərilməsi nəzərdə tutulan xidmətlərin ölkənin analoji dövlət qurumları tərəfindən həyata keçirilməsi barədə təkliflər hazırlayıb Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

4. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi:

4.1. muxtar respublikada yerləşən daşınmaz mədəni irsin, həmçinin arxeoloji abidələrin inventarlaşdırılması, sərhədlərinin və mühafizə zonalarının müəyyən edilməsi, pasportlaşdırılması və xəritələrinin hazırlanması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılmasını təmin etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 128 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"na uyğun olaraq mədəniyyət sahəsində dövlət monitorinqinin növbəti il üçün tədbirlər planını hazırlayıb təsdiq etsin.

5. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi, "Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsi və "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi fəaliyyət istiqamətləri üzrə bu Sərəncamın icrası ilə bağlı 2024-cü il dekabrın 16-dək tədbirlər planının layihəsini hazırlayıb təsdiq edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "6" dekabr 2024-cü il

№ 123s